# NAXÇIVAN MUXTAR RESPUBLİKASININ
# NAZİRLƏR KABİNETİ

# QƏRAR

**“Naxçıvan Muxtar Respublikasında dövlət büdcəsindən maliyyələşən idarə, müəssisə və təşkilatlarda nəqliyyat vasitələrindən istifadə qaydalarının təkmilləşdirilməsi haqqında” Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2011-ci il 25 avqust tarixli 82 nömrəli Qərarında dəyişiklik edilməsi barədə**

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 39-cu maddəsinin I hissəsinin səkkizinci abzasını rəhbər tutaraq, Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2011-ci il 25 avqust tarixli 82 nömrəli Qərarı ilə təsdiq edilmiş 2 nömrəli əlavə - “Naxçıvan Muxtar Respublikasının mərkəzi icra hakimiyyəti və məhkəmə orqanlarının aparatları (hərbi qurumlar, hüquq mühafizə və prokurorluq orqanları, rayon (şəhər) məhkəmələri istisna olmaqla), mərkəzi icra hakimiyyəti orqanlarının yerli bölmələri, onların yanında, tabeliyində olan orqanlar, mərkəzi icra hakimiyyəti orqanlarının yanında yaradılan dövlət agentliklərinin, dövlət xidmətlərinin aparatları və onların yerli bölmələri üçün xidməti minik avtomobillərinin say həddi (limiti)” cədvəlinin 31-ci hissəsinin “Cəmi” sütununda “2” rəqəmi “3” rəqəmi ilə, “aparat üzrə” sütununda “2” rəqəmi “3” rəqəmi ilə əvəz edilsin.
2. Bu Qərar imzalandığı gündən qüvvəyə minir.

**Cabbar Musayev**
**Naxçıvan Muxtar Respublikasının Baş naziri**

Naxçıvan şəhəri, “ 31 ” “ iyul ” 2026-cı il

№ 30